# Zamanı sevgiləşdirmək güdrəti

## Bu dəfə Əli Kərimlə mövzunu bölüşdüm

**Bu, bir həqiqətdir ki, insan özünü dərk edəndən sonra onun həmsöhbəti, onun təsəlli ünvanlarından biri də xatirələr olur. Bir az da dəqiq ifadə etsəm, xatirələr insanı həm də ümid yerinə, güvəndiyi nöqtəyə çevrilir. Çünki onlar yaşanıb və sən də, mən də, bütövlükdə hamımızda xatirələrimizin bütün cizgilərindən xəbərdarıq. Yaşanmışı yenidən xatırlayanda həm təzələnirik, həm də özümüz-özümüzü sanki güzgüdə görürük. Bax, bu mənada ruh adamları daha çox xatirələrə könül verir, daha çox xatirələrlə baş-başa qalır və nəticədə də onların sözünün bir damarı da elə xatirələr olur.**

Azərbaycan ədəbiyyatında özünü bir söz adamı kimi tanıtmış, sevdirmiş, adını ədəbiyyat tariximizə yazmış Əli Kərim öz poetik qüdrətini hər kəsə göstərməklə yanaşı, həm də sevdirmişdi. Onun şeirləri insanın iç dünyasını sanki vərəqləyir və o vərəqlərin hər sözü, hər misrası duyğusal oxucuya özünü xatırladır, özünü tanıdır. Bu gün kitab rəfimin önündə dayananda yenə diqqətimi çəkdi Əli Kərim və adətimə uyğun olaraq onun "Seçilmiş əsərləri"ni götürdüm. Və heç bir şeirini öncədən düşünmədən kitabı açdım və başladım oxumağa. Əli Kərim yazmışdı ki:

*Gecə də,*
*gündüz də*
*fikrimdə sənsən,*
*Mən kimin fikrində yaşayım, söylə?*
*De hansı bir ürək qəbul eləyər*
*Məni sən ünvanlı*
*dərdlə, gileylə.*

Bəli, bir halda ki, gecə də, gündüz də fikrim səndədirsə, ağlım yanındadırsa, könlüm səni öz dünyasında elə könlümün özü kimi



qoruyursa, yaşadırsa, onda mənim bu dünyadan hansı gileyim ola bilər. Təbii ki, məntiqə görə heç bir gileyə yer yoxdur. Amma mənim bu yaşamım sənin tərəfindən iynə ucu boyda da olsa, qarşılıq almırsa, diqqət görmürsə, bunun anlamı, yozumu, ümumiyyətlə, bu halın mövcudluğu necə qiymətləndirilməlidi?!. Axı sevgi qarşılıq tələb edir, ürək bütövlük umur. Onda da öz-özünə pıçıldamağa məcbur olursan:

*Səni düşünürəm...yenə fikrimə -*
*o anlar...o günlər... o aylar gəlir...*
*Baxıram səninlə birgə şəklimə -*
*dilimə gör hansı olaylar gəlir...*

Düşünə düşünə də, xatırlaya xatırlaya da olsa yenə də özünü ovutmaq heç də asan deyil. Əksinə bu ağrının yarasına səpilən duzdu və yaxud onun qabığının qopardılmasıdı. Deməli, hər iki halda ağrıya ağrı qatmaqdı. Ona görə də xatirələr, xəyallar yaxanı buraxmır. Səni hər tərəfə çəkir və sən də o xatirələrin arxasınca gah yüyürürsən, gah da sürünürsən. O yerə qədər ki, sən hər kəsə kimliyini etiraf etməli olursan və deyirsən ki:

*Hansı bir ürəyə yan alsam əgər,*
*Dərdimin adından biləcək yadam.*
*Biləcək,*
*gəlməyəsi,*
*köçəri quşam,*
*Uzağam,*
*soyuğam,*
*dərdəm,*
*fəryadam.*

Bu bilgi, bu tanıtım, bu təqdimat qarşı tərəf üçün bəlkə də xoşdu, qəbuledilləndi. Amma sənin özün üçünsə özünü üzmək, özünü didib parçalamaq... Və nəhayət, özünü adidən adi, lap belə gərəksiz etmək kim bir şeydi. Çünki sən kimin üçün yaşadığını, kimi ürəyində daşıdığını, kimə görə bu ağrı-acılara qatlaşdığını bilirsən. Amma bilməli olan isə... susur, ya da özünü bilməməzliyə, görməməzliyə vurur. Və onda:

*Sevgi tumurcuğu çatlayan vaxtı*
*dönüb gözlərimə bir gözəl baxdı...*
*Gözündən könlümə bir işıq axdı -*
*aşıb dağ-dərəni dolaylar gəlir...*

Hə, bu işığın, bu sevginin bütün çalarlarını, bütün incəliklərini yalnız yaşamaqla, özününküləşdirməklə, öz qanından, canından, köynəyindən keçirməklə anlamaq mümkündür. Bunun üçün isə həmin o sevgiyə hazır olmaq və ən azı bir DİN kim qəbul etmək lazımdır. Məhz bu baş verərsə, onda niyə yaşadığımızı, kimin üçün yaşadığımızı bütünlüklə anlamış olarıq. Və ən vacibi isə qarşı tərəfin könlündə rəhm, mərhəmət duyğuları ilə yanaşı ilahi bir sevgi də göyərər, qol-qanad atar. Və onda sən də, mən də Əli Kərimin vurğuladığı o sevginin, o gecə-gündüzün əsl mahiyyətini anlamış və yaşamış olarıq. Deməli, bütün hallarda sevgini ruh və ürəklə bərabər tam şəkildə özününküləşdirmək, özünü də sevgiləşdirməyi bacarmaq lazımdır. Bax onda sıxılmağa, hətta utanmağa da iynə ucu boyda da olsa yer qalmayacaq. Çünki:

*Əgər olsa*
*olsa,*
*qonaq eləyər*
*Rəhm edib gözümün məhzunluğuna.*
*Mənsə səhər durub gizli qaçaram,*
*Utanıb, əlvida deməərəm ona!*

Mən də məhz bu istəyin, bu diktənin könlünü həm də Məcnunsayaq təmsilçisi olduğunu artıq dəqiq bildiyimdən həmin o Əli Kərim etirafını, bir az da sərt desəm ,bəyanatını birmənalı olaraq qəbul edirəm. Çünki sevgiyə əlvida demək ölümə qucaq açmaqdı mənim anlamıma görə. İndiki halda isə:

*Üstümə doğan gün buluda düşdü*
*Sabahım ünyetməz umuda düşdü...*
*Dilindən qaçaraq "unut" da düşdü -*
*Dol gözüm, umudsuz, dol, aylar gəlir...*

**Siz, yəni Əli Kərimin oxucuları və bütövlükdə həyatının mənasını Sevgidə, anlayışda, diqqətdə, sədaqətdə görən hər kəs yəqin ki, mənimlə razılaşar. Bunu ona görə əminliklə dilə gətirirəm ki, halal, dürüst və böyük sevgilər heç vaxt "Əlvida!" qurbanı olmur. Onlar zamana qalib gəlir, zamana hopur və zamanı da sevgiləşdirirlər. Dünən də belə olub, bu gün də belədi, sabah da belə olacaq. İnanmırsınızsa, sevgi tarixinə tərəf üz tutun, vərəqləyin. Leyli Məcnunun, İlham və Fərizənin, mənlə səni və gələcəyi düşünmək yetər.**

**Əbülfət MƏDƏTOĞLU**